Vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəsi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Rafiq Abbasovun 2013-cü il oktyabrın 9-na təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində qeydə alınmış namizəd Cəmil Həsənlinin səlahiyyətli nümayəndəsi Gülağa Aslanlının 23 sentyabr 2013-cu il il tarixli 05 saylı müraciəti üzrə

**RƏYİ**

Bakı şəhəri 25 sentyabr 2013-cü il

Mən, ekspert qrupunun üzvü Rafiq Abbasov 2013-cü il oktyabrın 9-na təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində qeydə alınmış namizəd Cəmil Həsənlinin səlahiyyətli nümayəndəsi Gülağa Aslanlının 23 sentyabr 2013-cu il il tarixli 05 saylı müraciətini araşdıraraq müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin və "Azərbaycan Respublikasının Mərkəsi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun tərtib edildiyindən və nəzərdə tutulan şikayət vermə müddətində verildiyindən araşdırmaya qəbul edilmişdir.

2013-cü il oktyabrın 9-na təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində qeydə alınmış namizəd Cəmil Həsənlinin səlahiyyətli nümayəndəsi Gülağa Aslanlı 2013-cü il sentyabrın 23-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına yazılı müraciət edərək, 22 sentyabr 2013-cü ildə təmsil etdiyi namizədin maraqlarını müdafiə edən 5 nəfər gəncin "Azadlıq prospekti" metrostansiyasının girişində polis əməkdaşları tərəfindən saxlanılaraq Binəqədi Rayon Polis İdarəsinin 5-ci polis bölməsinə aparılaraq fiziki zorakılığa məruz qalmalarını, onlara məxsus təşviqat materiallarının (17 ədəd köynəyin, 220 ədəd plakat və şüarın) polislər tərəfindən müsadirə edildikdən sonra azad olmalarını, həmin gün Sumqayıt şəhərindən Bakıya gələn taksi və digər minik maşınlarının Dövlət Yol Polisi işçiləri tərəfindən əsassız saxlanılaraq Sumqayıt şəhərinə geri qaytarıldıqlarını, bundan əlavə, saat 15:00-dən başlayaraq 16:40-dək metronun "Həzi Aslanov"-"Dərnəgül" istiqamətində hərəkət edən metro qatarlarının heç bir xəbərdarlıq edilmədən "İçərişəhər" stansiyasına yönəltməklə "İnşaatçılar" stansiyasına gedən seçicilərin çətinliyə salındıqlarını, prezidentliyə maraqlarını təmsil etdiyi namizədin həmin gün seçicilərlə görüşü başa çatdıqdan sonra polis əməkdaşlarının Müsavat Partiyasının fəallarından olan Vasif Hüseynovun evinə gedərək valideynlərindən onun Yasamal Payon Polis İdarəsinə getməsini tələb etdiklərini bildirib, müraciətdə ehtimal olunan qanunsuzluqları həyata keçirən təşkilat və şəxslərin cəzalandırılması üçün Bakı Şəhər Baş Polis İdarəsinə, Bakı Metropoliteniinə və Yasamal Rayon Polis İdarəsinə müraciət edilməsini xahiş etmişdir.

Vətəndaşların seçki hüquqlarının daha səmərəli təmini prinsipini əsas götürülərək, ərizəçinin müraciəti Mərkəzi Seçki Komissiyası tərəfindən qanunla müəyyən olunmuş qaydada nəzərdən keçirilmişdir.

Müraciətdə iddia olunan qanun pozuntularının müvafiq qurumlar tərəfindən araşdırılmasına dair ərizəçinin xahişinin təmin edilməsi üçün əsaslar olduğundan müraciət araşdırılması və müvafiq tədbirlərin görülməsi üçün Bakı Şəhər Baş Polis İdarəsinə (Yasamal RPİ də Bakı Şəhər Baş Polis İdarəsinə tabe olduğundan) və Bakı Metropoliteni nə göndərilməli, nəticəsi barədə ərizəçiyə məlumat verilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6 və 7-ci bəndlərinə əsasən **rəyə gəldim:**

1. 2013-cü il oktyabrın 9-na təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində qeydə alınmış namizəd Cəmil Həsənlinin səlahiyyətli nümayəndəsi Gülağa Aslanlının Mərkəzi Seçki Komissiyasına daxil olmuş 23 sentyabr 2013-cü il tarixli 05 saylı müraciəti təmin edilərək aidiyyəti üzrə araşdırılması və müvafiq tədbirlərin görülməsi üçün Bakı Şəhər Baş Polis İdarəsinə və Bakı Metropoliteninə göndərilsin.
2. Araşdırmanın nəticəsi barədə şikayətçiyə məlumat verilməsi təmin edilsin.
3. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq Komissiyanın müvafiq qərarı ilə birlikdə dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə çatdırılsın.

Ekspert qrupunun üzvü Rafiq Abbasov